

# Bakı Fond Birjası Yanvar-Sentyabr ayı Hesabatı III rüb

2020

BAKI FOND BİRJASI

*Mühüm hadisələr*

# İYUL-SENTYABR 2020

## "AzerGold" QSC-nin istiqrazları ticarətə buraxıldı

18 sentyabr 2020-ci il tarixində Bakı Fond Birjasının (BFB) Listinq Komitəsinin qərarı ilə “AzerGold” QSC-nin ümumi dəyəri 20 000 000 (iyirmi milyon) ABŞ dolları olan istiqrazlarının birinci tranşı üzrə buraxılan hissəsi standart bazar seqmentində listinqə daxil edilmişdir.

24 sentyabr, 2020-ci il tarixində Bakı Fond Birjasında “AzerGold” QSC-nin AZ2001019879 dövlət qeydiyyat nömrəli, 10.000.000,00 ABŞ dolları həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrə hərrac yekunlaşmışdır. “AzerGold” QSC-nin istiqrazlarının hərracında tələb təklifi 2.5 dəfə üstələmişdir

## “Kapital Bank” ASC-nin səhmlərinin yerləşdirilməsi həyata keçirilmişdir

25 Avqust 2020-ci il tarixindən etibarən Bakı Fond Birjasının (BFB) Listinq Komitəsinin qərarı ilə “Kapital Bank” ASC-nin qiymətli kağızları BFB-də standart bazar seqmentində listinqə daxil edilmişdir.

7 sentyabr, 2020-ci il tarixində Bakı Fond Birjasında “Kapital Bank”ASC-nin AZ3001005157 ISIN-li, 19.999.999,95 manat həcmində, imtiyazlı adlı sənədsiz səhmlərinin yerləşdirilməsi üzrə hərrac yekunlaşmışdır.

## Sentyabr ayında Repo bazarı üzrə record göstərici

Sentyabr ayı ərzində repo bazarında 307,899,083 manat həcm ilə cari il üzrə rekord həcmdə əməliyyat baş tutmuşdur. 2020-ci il yanvar-sentyabr ayları üzrə repo bazarı əməliyyatları 1,379,481,145 manat təşkil etmişdir ki, ötən ilin müvafiq ayları üzrə müqayisədə əməliyyatların həcmində 64% faiz böyümə gerçəkləşmişdir. Eyni zamanda, 2020-ci ilin ilk 9 ayı üzrə repo əməliyyatlarının həcmi ötən ilin 12 ayı üzrə repo əməliyyatlarının həcmini 23% fərqlə ötmüşdür.

## Səhmlər üzrə təkrar bazarda yuxarı həcmdə artım

Səhmlər üzrə təkrar bazarda 2020-ci ilin ilk 9 ayı üzrə ticarət həcmində ötən ilin müvafiq ayları üzrə ümumi ticarət həcminə nisbətən 8.5 dəfəyə kimi artım müşahidə olmuşdur. Belə ki, 2020-ci ilin ilk 9 ayı üzrə korporativ qiymətli kağızları üzrə təkrar bazar əməliyyatlarının həcmi 1.5 milyar manatı keçərək, 2019-cu il üzrə 12 ayın göstəricilərini 36% fərqlə ötmüşdür.

## BOKT “Embafinans” QSC-nin istiqrazlarının yerləşdirilməsi keçirildi

Bakı Fond Birjasının (BFB) Listinq Komitəsinin qərarı ilə BOKT “Embafinans” QSC-nin istiqrazları 15 iyul 2020-ci il tarixində standart bazar seqmentində listinqə daxil edilmişdir.

17 iyul 2020-ci il tarixində Bakı Fond Birjasında BOKT “Embafinans” QSC-nin AZ2006020609 ISIN-li, 1,500,000 AZN həcmində, 1 il tədavül müddətli istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçirilmişdir.

## “Bakı Fond Birjası” QSC-nin Səhmdarlarının növbəti Ümumi Yığıncağı çağırılmışdır

24 iyul 2020-ci il tarixində “Bakı Fond Birjası” (BFB) QSC-nin Səhmdarlarının növbəti Ümumi Yığıncağı keçirilmişdir. İclasda BFB-nin 2019-cu il üzrə maliyyə nəticələri təsdiqlənmiş, Audit Komitəsi üzvləri arasında dəyişiklik edilmiş, eləcədə gündəliyə uyğun olaraq 2020-ci ilin büdcəsi ətrafında müzakirələr aparıldıqdan sonra büdcəyə əlavə və dəyişikliklər edilmişdir.

BAKI FOND BİRJASI

*Yanvar-Sentyabr 2020*

# AYLIQ STATİSTİKA

Bakı Fond Birjasında 2020-ci ilin yanvar-sentyabr ayları ərzində qiymətli kağızlar üzrə keçirilən əməliyyatların ümumi həcmi 8,572,178,846 manat təşkil etmişdir.

Nəticə olaraq, ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi təkrar bazar üzrə ticarət həcmində 42%, korporativ qiymətli kağızlar bazarı üzrə 81%, repo əməliyyatları üzrə isə 64%, səhmlər üzrə ilkin bazarda 100 misli, təkrar bazarında isə 8.5 misli qədər böyümə qeydə alınmışdır.

2020-ci ilin sentyabr ayının son ticarət günü üzrə Bakı Fond Birjasının kapitalizasiyası ilin əvvəlinə nisbətən 10% böyüyərək 2,705,321,341 manat təşkil etmişdir.

**42 %**
*Ümumi təkrar bazar*

**64%**
*Repo əməliyyatları*

**81%**
*Korporativ qiymətli kağızlar bazarı*




*MN- Maliyyə Nazirliyi
*KQK- Korporativ qiymətli kağızlar
*DQK- Dövlət Qiymətli Kağızları

# 2020 üçüncü rüb

**Ümumi ticarət həcmi**

**3,829,376,603 manat**

**Aylıq əqdlərin sayı**

**1633**

*Bakı Fond Birjası Ümumi Ticarət Dövriyyəsi*

# YANVAR-SENTYABR 2020

| Bazarlar / Əməliyyatlar | 30.09.2020-ci il tarixinə | | 30.09.2020-ci il tarixinə | |
|---|---|---|---|---|
| | Əqdlərin həcmi (manatla) | Əqdlərin sayı | Əqdlərin orta günlük** həcmi (manatla) | Əqdlərin orta günlük sayı |
| **1. Dövlət qiymətli kağızları** | **5,657,261,602** | **1,221** | **32,143,532** | **6.9** |
| **1.1. İlkin bazar** | **5,018,684,331** | **778** | **28,515,252** | **4.4** |
| Dövlət istiqrazları (AR Maliyyə Nazirliyi) | 711,390,226 | 257 | 4,041,990 | 1.5 |
| ARMB* qiymətli kağızları | 4,307,294,105 | 521 | 24,473,262 | 3.0 |
| **1.2. Təkrar bazar** | **638,577,271** | **443** | **3,628,280** | **2.5** |
| Dövlət istiqrazları | 383,203,186 | 408 | 2,177,291 | 2.3 |
| ARMB qiymətli kağızları | 255,374,085 | 35 | 1,450,989 | 0.2 |
| **2. Korporativ qiymətli kağızlar** | **1,535,436,099** | **1,730** | **8,724,069** | **9.8** |
| **2.1. İlkin bazar** | **227,864,294** | **120** | **1,294,683** | **0.7** |
| 2.1.1. Səhmlər | 30,000,000 | 53 | 170,455 | 0.3 |
| 2.1.2. İstiqrazlar | 197,864,294 | 67 | 1,124,229 | 0.4 |
| - İpoteka istiqrazları | 175,666,591 | 10 | 998,106 | 0.1 |
| - Digər istiqrazlar | 22,197,703 | 57 | 126,123 | 0.3 |
| **2.2. Təkrar bazar** | **1,307,571,805** | **1,610** | **7,429,385** | **9.1** |
| 2.2.1. Səhmlər | 14,471,078 | 1,246 | 82,222 | 7.1 |
| 2.2.2. İstiqrazlar | 1,293,100,727 | 364 | 7,347,163 | 2.1 |
| - İpoteka istiqrazları | 1,272,366,478 | 77 | 7,229,355 | 0.4 |
| - Digər istiqrazlar | 20,734,250 | 287 | 117,808 | 1.6 |
| **3. Repo əməliyyatları** | **1,379,481,145** | **881** | **7,837,961** | **5.0** |
| Dövlət istiqrazları üzrə | 1,280,458,092 | 833 | 7,275,330 | 4.7 |
| ARMB qiymətli kağızları üzrə | 62,374,621 | 19 | 354,401 | 0.1 |
| Korporativ qiymətli kağızlar üzrə | 36,648,431 | 29 | 208,230 | 0.2 |
| **Cəmi (1+2+3)** | **8,572,178,846** | **3,832** | **48,705,562** | **21.8** |
| - o cümlədən: ilkin bazar | **5,246,548,625** | **898** | **29,809,935** | **5.1** |
| - o cümlədən: təkrar bazar | **1,946,149,076** | **2,053** | **11,057,665** | **11.7** |

# Birja üzvlərinin yanvar-sentyabr ayları üzrə renkinqi

## İnvestisiya şirkətləri

| Qiymətli kağızın növünə görə | "Paşa Kapital İ.Ş" QSC | "Unicapital İ.Ş" ASC | "AzFinance İ.Ş" QSC | "BTB Kapital İ.Ş" ASC | Xalq Kapital İ.Ş" QSC | "İnvest-AZ İ.Ş" QSC | "PSG Kapital İ.Ş" QSC |
|---|---|---|---|---|---|---|---|
| ARMB qiymətli kağızları | 2,894,447,206 | 171,518,826 | 525,684,074 | 240,192,196 | 540,333,966 | 331,310,145 | 96,946,745 |
| Dövlət istiqrazları | 1,396,121,975 | 212,123,635 | 257,849,338 | 281,947,580 | 12,590,310 | 11,696,596 | 16,857,393 |
| Korporativ istiqrazlar | 1,221,400,560 | 9,961,039 | 116,446,733 | 291,132,789 | 22,492,050 | 28,435,899 | 19,694,494 |
| Səhm | 69,990,453 | - | 17,376 | 1,964,121 | 429,071 | 16,410,210 | 130,925 |
| Repo | 1,528,009,239 | 1,064,376,417 | 102,513,289 | 25,244,543 | - | 24,498,184 | 14,320,617 |
| Cəmi əməliyyatların həcmi | 7,109,969,434 | 1,457,979,917 | 1,002,510,811 | 840,481,228 | 575,845,397 | 412,351,034 | 147,950,173 |
| Cəmi əməliyyatların həcmi | 1761 | 1002 | 807 | 522 | 473 | 1692 | 804 |



# Bazarlar üzrə Top 3 birja üzvləri

## Ümumi əməliyyatların həcmi görə




## Səhm bazarı üzrə




## Korporativ istiqraz bazarı üzrə




## Repo əməliyyatları üzrə



# 2020-ci ilin ilk 9 ayı üzrə bazar trendləri

*(manatla)*







**Dövlət qiymətli kağızları üzrə ticarət həcmi**
***(manatla)***




**Korporativ qiymətli kağızlar üzrə ticarət həcmi**
***(manatla)***

BAKI FOND BİRJASI

# 2020-ci ilin ilk 9 ayı üzrə bazar trendləri

*(manatla)*




# Repo əməliyyatları

*(manatla)*

